# Xalq Cumhuriyyətinin ekran taleyi



Bədii kinematoqrafiyanın qarşısında duran mühüm vəzifələrdən biri də onun ara-sıra tarixi mövzulara müraciət etməsidir. Qeyd etmək yerinə düşər ki, Azərbaycan milli kinosunda tarixi-qəhrəmanlıq filmləri "Durğunluq dövrü" adlandırdığımız mərhələyə qədər çəkilmişdir. 90-cı illərdən başlayaraq kinomuzda yaranan böhranlı vəziyyət, maliyyə çatışmazlığı müasir həyat lövhələrini özündə əks etdirən bədii filmlərin ön plana gətirilməsinə səbəb oldu. Və bu təbii idi.

Bu gün Sovet dönəmində istehsal olunmuş tarixi filmlərə nəzər saldıqda görürük ki, Azərbaycan tarixinin əksər dövrləri nəinki öz ekran həllini tapmayıb, hətta bu haqda ədəbi ssenarilər belə yazılmayıb. Digər tərəfdən də hamıya yaxşı məlumdur ki, çəkilən filmlərə sovet ideologiyası güclü nüfuz və diktə edirdi. Bu ideologiyanın neqativ mövqedən yanaşdığı dövrlərdən biri və ən önəmlisi 1918-1920-ci illərdə Azərbaycan tarixinin səhifələrinə şanlı sətirlər yazmış Xalq Cumhuriyyətidir. Düzdür, bir neçə məşhur filmdə Cumhuriyyət mövzusu ikinci planda, bir xətt kimi göstərilir. Həmin dövrün hakim partiyası olan Müsavat isə anti-Azərbaycan hökuməti kimi qələmə verilir. "Gəncəbasarlı qisasçı", "Gözlə məni", "Birisigün gecə yarısı", "İşarəni dənizdən gözləyin", "İyirmialtılar" bədii filmləri

məhz bu qəbildəndir.

"Gəncəbasarlı Qisasçı" bədii filmi (rej. Rasim Ocaqov) Sovet dönəmində az qala xalq qəhrəmanı səviyyəsinə qaldırılan Qatır Məmmədin (Məmməd Əli oğlu Məmmədov) həyat və mübarizəsindən bəhs edən tarixi ekran əsəridir. Lakin qəti şəkildə demək mümkündür ki, filmdə tarixi uyğunsuzluqlar mövcuddur. Tarixdən məlumdur ki, Qatır Məmməd Cumhuriyyət dövrünə qədər çar Rusiyasının yerli məmurlarına, bəylərə, ağalara, bir sözlə sosial bərabərsizliyə, ədalətsizliyə qarşı mübarizə aparmış, sonra isə katorqaya sürgün edilmişdi. 1919-cu ildə vətənə dönən Məmməd yenidən ətrafına qüvvə toplayaraq mübarizəyə başlayır və 1920-ci ildə həlak olur. Filmdə göstərilir ki, onun 1919-1920-ci illərdəki mübarizəsi Müsavat hökumətinə qarşı yönəlib. Halbuki tarixi faktlar sübut edir ki, Qatır Məmməd heç də hökumətə qarşı deyil, həmin vaxtlarda Cənubi Qafqazda, eləcə də Azərbaycanda mövcud olan ingilis hərbi komandanlığına və yerli bəylərin zülmünə qarşı mübarizə aparmışdır. Qeyd etmək yerinə düşər ki, filmdə Qatır Məmməd obrazını mərhum aktyor Şahmar Ələkbərov yaratmışdır. Ssenari müəllifləri Kirill Rapoport və Mixail Maklyarski Gəncə qubernatoru Xudat bəy Rəfibəylinin prototipi kimi yaratdıqları Qubernator obrazını (aktyor Məmmədrza Şeyxzamanov) ağıllı, təmkinli və yüksək dəyərlərə malik şəxsiyyət, müsavatçı Əzizi (aktyor Rasim Balayev) isə bic və satqın bir zabit kimi göstərməyə çalışıblar. Müsavat rəhbərliyi imperialist hökumət kimi tanıdılır və tamaşaçıda belə fikir oyanır ki, onlar xalqın iradəsi ilə deyil, xarici qüvvələrin tələbi ilə dövlət qurublar. Burada kiçik bir haşiyəyə çıxaraq iki obrazı - "Qatır Məmməd"dəki Gəncə qubernatorunun şəxsiyyətini, "Birisigün gecə yarısı" filmindəki (rej.Arif Babayev) İsrafil bəyin (aktyor Rasim Balayev) mərdliyi ilə müqayisə etmək istərdik.

"Birisigün gecə yarısı" filmində belə bir epizod var: İsrafil bəy öz dəstəsi ilə Bakıya hücuma hazırlaşır, lakin bolşeviklər onu mühasirəyə alırlar. İsrafil bəy isə təslim olmur, özünə sui-qəsd edir. Deməli qismən də olsa həm Rasim Ocaqov, həm də Arif Babayev bu obrazlar vasitəsilə milli qürur hisslərini aşılamağa nail ola bilmişlər.

Rejissor Kamil Rüstəmbəyovun xalq yazıçısı İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" pyesinin motivləri əsasında lentə aldığı, Elçinin ssenarisi üzrə Elqa Lındinanın iştirakı ilə çəkdiyi "Gözlə məni" bədii filmində də Azərbaycan bəyinin siması öz əksini tapıb. Ekran əsərində təsvir olunan hadisələr Qarabağda cərəyan edir. Bakıda baş verən hadisələr, Azərbaycan hökumətinin yıxılması barədə məlumatlar filmin əsas personajlarından olan Böyük bəyə (aktyor Həsənağa Turabov) çatdırılır. Azərbaycan hökumətinin süqutu isə Qırmızı Ordunun tezliklə Qarabağa gələcəklərindən xəbər verir. Lakin Bakıda baş verən proseslər də filmdə diqqət mərkəzindədir. Bolşevik özbaşınalığının tüğyan etməsi bir vətənpərvər Azərbaycan bəyi kimi Böyük bəyi narahat edir.

Sovet tarixşünaslığı Azərbaycan Xalq Cumhuriyyətini Müsavat dövləti kimi qələmə verir və onu daha çox ingilis, türk imperialistləri ilə əlaqədə günahlandırırdı. "İyirmialtılar" bədii filmində (rej. Əjdər İbrahimov) buna daha çox toxunulur. Bakıda Sovet hakimiyyətini dəhşətli üsullarla möhkəmləndirməyə və onu bütün Cənubi Qafqaza yaymağa çalışan iyirmi altı nəfər komissarın fəaliyyətindən bəhs edən bu filmdə komissarlar xalqın dostu, onun yeganə ümidgahı kimi göstərilir, milli qüvvələrə isə əsl düşmən donu geyindirilir. Halbuki, Bakıdakı 1918-ci il mart qırğınını Şaumyan və onun başçılıq etdiyi əksmüsəlmançı qüvvələr (eserlər, daşnaklar, menşeviklər) törətmişdilər.

"İyirmialtılar" komissarların güllələnməsi epizodu ilə sona çatır və onların qətlində yenə



də müsavatçılar günahlandırılır. Halbuki, komissarları Azərbaycan hökuməti deyil, "Sentrokaspi" deyilən "oyuncaq" Bakı hökuməti həbs etmişdi. Onların qətli barədə fərmanı da ingilis komandanlığı imzalamışdı.

Rejissor Ceyhun Mirzəyevin 1986-cı ildə lentə aldığı "İşarəni dənizdən gözləyin" bədii filmində baş verən hadisələr Cumhuriyyətin son aylarında, Bakıda cərəyan edir. Film Azərbaycanda Sovet hakimiyyətinin qurulmasında əvəzsiz xidmətləri olmuş respublikanın ilk dəniz komissarı Çingiz İldırıma həsr edilib. Tarixdən məlum olur ki, o, hələ müsavat hakimiyyəti dövründə dəniz komandanı təyin olunmuş, ancaq gizli şəkildə Azərbaycan Kommunist Bolşevik Partiyasının xeyrinə fəaliyyət göstərirdi. Filmdə komandan adı ilə təqdim olunan Çingiz İldırım (aktyor Fuad Poladov) yoxa çıxmış topların çaxmaqlarını axtarmaq məqsədilə axtarışa başlayır, yalnız ingilis gəmisi istisna olmaqla... Axtarışlar bir nəticə vermədikdə komandan Azərbaycan hökumətinin baş naziri Nəsib bəy Yusifbəylidən (aktyor Həsənağa Turabov) ingilis gəmisini yoxlamaq üçün icazə istəyir. Baş nazir tərəddüd edir. Bununla belə əksər hökumət üzvləri komandanın fəaliyyətinə maneçilik törətməyə cəhd göstərirlər. Lakin bütün bunlara baxmayaraq komandan sonda öz istəyinə nail olur və bu o zaman baş verir ki, hakimiyyət devrilir. Hökumətin fövqəladə iclasının keçirildiyi zala daxil olan Çingiz İldırım, Həmid Sultanov və başqaları hakimiyyətin bolşeviklərə verilməsini tələb edirlər.

Ekran əsərində ingilis komandanlığı işğalçı mövqedən göstərilsə də tarix bütünlüklə bunu təkzib edir. Axı hələ 1919-cu ilin yayında ingilis qüvvələri Bakını tərk etmişdi. Onlar gedərkən öz hərbi-dəniz avadanlıqlarını da Azərbaycan hökumətinə bağışlamışdılar. Belə olduğu təqdirdə respublika ərazisindəki hansı ingilis gəmisindən söhbət gedə bilərdi. Filmdə əsas hadisəyə çevrilən hökumət üzvlərinin ingilislərlə birləşərək milli hakimiyyəti devirmək planı isə tamamilə məntiqsizdir. Müsavat rəhbərliyinin Azərbaycan xalqına yad insanlar, Nəsib bəy Yusifbəyli kimi görkəmli ictimai-siyasi xadimin bacarıqsız və iradəcə zəif baş nazir kimi təqdim olunması tamaşaçıda milli hökumətə qarşı nifrət hisslərinin aşılanmasına xidmət edir. Hərbi nazir general Səməd bəy Mehmandarovun (aktyor H.Məmmədov) işlətdiyi "Mən uzun illər qulluq etdiyim Rusiyaya silah qaldıra bilmərəm", "Oyun bitdi, ağalar, dağılışaq evimizə" kəlmələrinin heç bir tarixi əsası yoxdur. Düzdür, Mehmandarov çar Rusiyasının zabiti idi, lakin bu heç də onun Azərbaycanın müstəqilliyinin itirilməsi ilə barışması demək deyildi. İşğaldan bir gün əvvəl, yəni aprelin 26-sı hərbi nazir teleqram göndərərək Qarabağdakı Azərbaycan korpusunun təcili Bakıya gəlməsini əmr edir. Amma həmin teleqram bolşeviklərin əlinə keçir və qocaman general son ümidini itirmiş olur.

Filmlər üzrə apardığımız kiçik təhlildən belə qənaətə gəlmək olar ki, cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cumhuriyyəti hələ layiqli ekran taleyini yaşamayıb. Hesab edirik ki, Cumhuriyyət, onun M.Ə.Rəsulzadə, Ə.Topçubaşov, F.X. Xoyski, N.B Yusifbəyli və onlarla digər görkəmli şəxsiyyətinin həyat və fəaliyyəti, vətənimiz üçün etdikləri əməllərinin bədii kinonun dili ilə ekrana gətirilməsi inkişafa doğru irəliləyən milli kinematoqrafiyamızın vacib mövzularından olmalıdır. Misal olaraq qeyd etməliyik ki, Rusiya kinematoqrafiyası çarizm dövrü və onun şəxsiyyətlərindən bəhs edən silsilə bədii filmlər çəkməklə bu işin öhdəsindən gələ bildi. İndi isə sıra Azərbaycan kinosunundur.

**Kamran Qasımov,**
**kinorejissor,**
**Azərbaycan Professional Kinorejissorlar Gildiyasının üzvü**